**UOT 94**

# AZƏRBAYCAN GƏNCLİYİNİN MİLLİ KİMLİYİNİN ƏSASINI QOYAN İLK ŞƏXS – MİRZƏ HƏSƏN RÜŞDİYYƏ

**Səməd BAYRAMZADƏ**[*]

***Açar sözlər:****Cənubi Azərbaycan, Rüşdiyyə, yeni tipli məktəb, milli kimlik, Vətən dili.*

**Giriş**

İndiyə kimi dünya mədəniyyəti xəzinəsinə ədəbiyyat və incəsənət sahəsində böyük töhfələr təqdim etməklə onu zənginləşdirən Azərbaycan xalqı bu mədəniyyəti istər ölkənin şimalında və ya cənubunda, istərsə də şərqində və ya qərbində birlikdə yaratmışdır.

Müəyyən tarixi mərhələlərdə bütün Azərbaycanda sosial-iqtisadi amillərin inkişaf səviyyəsi təqribən eyni olduğundan mədəni təkamülün sürəti, formaları və məzmunu da ona uyğun olaraq formalaşmış və inkişaf etmişdir. Amma Azərbaycanın parçalanması (xanlıqlara bölünməsi) ilə başlanan XIX əsr, xüsusilə də 1828-ci ildə Türkmənçay müqavilələri nəticəsində bu diyarın İran və Rusiya imperiyaları arasında ikiyə bölünməsi Azərbaycan xalqının tarixi müqəddəratında, o cümlədən onun bu vaxtadək eyni istiqamətdə inkişaf edən mədəniyyətinin sonrakı təkamülündə kəskin dönüşün başlanğıcı oldu. Şimali və Cənubi Azərbaycanda müxtəlif sosial-iqtisadi və siyasi şəraitin yaranması sözsüz ki, mədəni inkişaf istiqamətlərinə də getdikcə daha artıq dərəcədə təsir göstərməyə başladı [1, s.209].

Çarizmin müstəmləkəçilik, assimilyatorçu siyasətinə baxmayaraq Şimali Azərbaycanın ən qabaqcıl demokratik qüvvələri Azərbaycan xalqının öz milli mədəniyyətinin əsaslarını qurmasında həlledici rol oynadı. Bu sırada Azərbaycan demokratlarının Rusiya demokratları ilə sıx ideya və yaradıcılıq əlaqələrini, Rusiya mədəniyyət xadimlərinin Azərbaycanda mədəni inkişafa yardımını, xüsusilə də onların Azərbaycanda maarifin və milli dilin inkişafında bilavasitə iştiraklarını da vurğulamaq lazımdır.

Feodal münasibətlərin, ona uyğun ideologiya və ənənələrin hökm sürdüyü Qacarlar dövləti tərkibində qalan Cənubi Azərbaycanın ümumi inkişafı tamamilə başqa yolla getdi. Buradakı sosial-iqtisadi və siyasi proseslər Şimala nisbətən çox ləng gedir və hətta eybəcər xarakter daşıyırdı. Məsələn, yeni burjuaziya ziyalılarının (istər azərbaycanlı və istərsə də fars ziyalılarının) böyük bir qismi ölkədən kənarda – Rusiyada, Türkiyədə, Misirdə, Hindistanda formalaşır, fəhlə kadrları isə başlıca olaraq Cənubi Azərbaycan kəsbkarlarının simasında Rusiyada, xüsusilə də məlum sənaye, ticarət, mədəniyyətvə siyasi mübarizə mərkəzi olan Bakıda yetişirdi. Nəticədə, bütün İran kimi Cənubi Azərbaycan da XX əsrin əvvəllərində kapitalizmə keçid mərhələsində qalmış, burada iqtisadi və sosial, siyasi və mənəvi həyatın əsas vəzifələri hələ də feodalizmdən çıxmaq, kapitalist münasibətlərini, burjua qayda-qanunlarını yaratmaqdan ibarət idi [1, s.210].

## 1. Cənubi Azərbaycanda yeni mədəniyyəti və maarifçiliyi şərtləndirən ictimai-iqtisadi, siyasi və mədəni şərait

XIX əsrin sonlarından başlayaraq Şərq ölkələrində olduğu kimi, İranda da mədəni təkamülün baş verməsində, yeni mədəniyyətin və ideologiyanın yaranmasında Qərb, o cümlədən Rusiya mədəniyyətinin təsirini inkar etmək olmaz. Bu təsir Qacarlar dövlətinin başqa əyalətlərinə nisbətən Azərbaycanda daha dərin olmuşdur. Bunun əsas və başlıca səbəbi isə Cənubi Azərbaycanın mədəni inkişafında Şimalı Azərbaycanın oynadığı müstəsna rol ilə izah oluna bilər.

[*] *Tarix üzrə fəlsəfə doktoru, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*samad.bayramzadeh@gmail.com*

Azərbaycanın 1828-ci ildə Türkmənçay müqaviləsi ilə ikiyə bölünməsindən sonra yaradılmış siyasi sərhədlər belə vətənin hər iki hissəsində yaşayan əhalinin tarixi, dil və mənəvi birliyini poza bilmədi. Şimali Azərbaycanın mədəni həyatında baş verən hər hansı yeniliklər müəyyən dərəcədə Cənubi Azərbaycanda öz əksini tapırdı. Şimali Azərbaycan Rusiyadan və Qərbdən Cənubi Azərbaycana yeni ictimai-siyasi görüşlərin və elmi-mədəni baxışların keçdiyi ən mühüm kanallardan biri idi. Bu mənada Şimali Azərbaycan yalnız ötürücü rolu ilə məhdudlaşmırdı. O zaman bütün yeni baxışlar və ideyalar bir çox cəhətdən məhz burada, Şimali Azərbaycanda ilk dəfə olaraq Şərqin tarixi-mədəni şəraitinin xüsusiyyətləri ilə bağlı şəkildə işlənir və sonradan müsəlman ölkələrinə, o cümlədən Cənubi Azərbaycana da yayılırdı. Bu sırada XIX əsrdə Şimali Azərbaycanda daha mütərəqqi mədəniyyətin və maarifçilik ideyalarının yaranmasında xüsusi xidmətləri olmuş Abbasqulu ağa Bakıxanovun, Mirzə Şəfi Vazehin, Seyid Əzim Şirvaninin və Mirzə Fətəli Axundov kimi yazıçı və mütəfəkkirlərin rolunu qeyd etmək lazımdır. Bu insanların, xüsusilə də M.F.Axundov yaradıcılığı nəinki Cənubi Azərbaycanın, eləcə də bütün İranın mədəni inkişaf yolunu işıqlandırmış, ona yeni məzmun gətirmiş, yeni istiqamət vermişdir. Belə ki, M.F.Axundov yaradıcılığı Cənubi Azərbaycanın Mirzə Yusif xan Müstəşarüddövlə, Əbdürrəhim bəy Talıbov (“Kitab yüklü eşşək”, “Əhmədin kitabı”, “Xeyirxahlar yolu”), Zeynalabdin Marağayi ("İbrahim bəyin səyahətnaməsi"), Qaracadağı və bir sıra başqa görkəmli yazıçı və mədəniyyət xadimlərinin dünyagörüşü və yaradıcılığına çox güclü təsir göstərmiş və onların bir çoxu özlərini onun şagirdi hesab etmişlər.

Qacarlar dövlətinin Qərb aləmi ilə yenicə müntəzəm siyasi və iqtisadi əlaqələrə girdiyi XIX əsrin 30-60-cı illərində Cənubi Azərbaycanda formalaşan yeni mədəni mühit cəmiyyətin son dərəcə məhdud bir hissəsini, əsasən mərkəzi dövlət aparatı ilə bağlı olan yuxarı təbəqəsini əhatə edirdi.

Azərbaycanın yuxarı təbəqələrindən olan Mirzə Yusif xan Müstəşarüddövlə, Abdulla Sarabi, Məhəmmədhəsən xan Etimadüssəltənə kimi nümayəndələri Rusiya və Avropa ölkələrinə diplomat, rəsmi nümayəndə sifətilə və ya təhsil almaq üçün gedərkən bu ölkələrin iqtisadi, elmi-texniki nailiyyətləri ilə yanaşı onların mədəni həyatı, ədəbiyyat və incəsənəti ilə də tanış olurdular. Təəssüflər olsun ki, onların əksəriyyəti vətənə qayıtdıqdan sonra öz sosial köklərinə və mənsub olduqları təbəqənin maraqlarına sadiq qalaraq feodal dövlət idarə sistemində yalnız bəzi səthi dəyişikliklər, məsələn, **məhdud dairədə yeni təhsil sistemi təşkil etmək kimi təşəbbüslərdən kənara çıxa bilmirdilər**. Belə təşəbbüslər isə nəinki geniş xalq kütlələrinin, hətta hakim təbəqə nümayəndələrinin belə mədəni səviyyəsinə və dünyagörüşünə təsir göstərə bilmirdi.

XIX əsrin sonu və XX əsrin əvvəlləri isə Cənubi Azərbaycanın mədəni inkişafı əsaslı surətdə dəyişmiş oldu. Belə ki, bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da təsərrüfat həyatı xarici aləmlə, ilk növbədə Rusiya ilə sıx bağlanmış oldu. Bu mərhələdə artıq yalnız cəmiyyətin yuxarı təbəqələrinin ayrı-ayrı nümayəndələri deyil, bir çox tacir və iş adamları da müəyyən zaman fasilələri ilə Rusiya şəhərlərinə, o cümlədən Bakıya, Tiflisə, Həştərxana, Aşqabada, Nijni-Novqoroda gedir, bəziləri isə həmişəlik olaraq buralarda qalırdılar. Təbriz, Ərdəbil və bəzi başqa şəhərlərin varlı sakinləri getdikcə daha tez-tez öz övladlarını Rusiya və Qərbi Avropanın orta və ali məktəblərində oxumağa yollayırdılar [1, s.212].

Digər tərəfdən də XIX əsrin son onilliklərində var-yoxdan çıxan on minlərlə kəndli, sənətkar iş dalınca xarici ölkələrə, xüsusən Rusiyaya kəsbkarlığa getməyə başlayırlar. İllərlə burada qalmalı olan azərbaycanlılar Bakıda, Tiflisdə, Aşqabadda, İstanbulda öz xeyriyyə cəmiyyətlərini təşkil edir, onların maliyyə dəstəyi ilə məktəblər açırdılar. Vətənə qayıtdıqdan sonra onlar özlərilə İrandakından tamamilə fərqli olan həyat tərzi haqqında, o cümlədən mədəniyyət haqqında yeni təsəvvürlər gətirirdilər. Eyni zamanda bu dövrdə Şimaldan Cənubi Azərbaycana tacirlərin, sənaye şirkətləri işçilərinin, müxtəlif peşə sahiblərinin, hətta jurnalist və alimlərin axını başlayır [1, s.213].

Bütün bunlar Cənubi Azərbaycanda yeni mədəniyyətin meydana gəlməsinə həlledici təsir göstərir. Yeni mədəniyyət dar çərçivədən çıxaraq daha geniş dairələri əhatə etməyə başlayır. Artıq Qərbin yalnız texniki biliklərinə deyil, ictimai həyatına, siyasi, iqtisadi və sosioloji biliklərinə, habelə ədəbiyyat və incəsənətinə də maraq oyanır.

Bu mərhələdə Cənubi Azərbaycanın mədəni inkişafı müəyyən dərəcədə maarifçilik xarakteri daşıyırdı. Buradakı maarifçilik hərəkatı Qərbdən fərli olaraq ümumi ictimai-siyasi şüarlar – istibdada son qoyulması, qanuna əsaslanan ədalətli cəmiyyət yaradılması, XIX əsrin son illərində isə konstitusiyalı monarxiya yaratmaq çərçivəsindən kənara çıxmırdı. Lakin bütün hallarda bu şüarlar əslində mütərəqqi idi.

Cənubi Azərbaycanda (və bütün İranda) maarifçilik hərəkatının başqa bir zəif cəhəti də bunda idi ki, onun gedişində ictimai fikir, mədəniyyət dindən təcrid olunmadı. Bu da başlıca olaraq onunla bağlı idi ki, Cənubi Azərbaycanın bu dövrdəki bütün mədəni həyatı dinlə, ruhanilərin mövqeyi ilə daha sıx bağlı idi.

Cənubi Azərbaycanda milli mədəniyyətin inkişafı prosesində digər zəif cəhət onun yenə də fars dili ənənəsi çərçivəsində qalması idi. Yeni yaranmaqda olan ziyalıların əksəriyyəti ikidilli olub, eyni dərəcədə həm Azərbaycan və həm fars dilini bilirdilər. Lakin mədəniyyətin şeirdən və xalq yaradıcılığından başqa demək olar ki, bütün sahələrində fars dili hakim idi. Hətta ömrünün çoxunu Zaqafqaziyada, Türkiyədə və Misirdə keçirən Marağayi, Talıbov kimi yazıçıların yaradıcılığı da fars dilində idi.

XIX əsrin sonlarında başqa bir amil – İranda siyasi şüurun oyanması, ölkənin ictimai-siyasi həyatında antifeodal və antiimperialist meyllərin yaranması ön plana çıxmaqla dolayı yolla milli şüurun, buradan isə milli dilə olan ehtiyacın yaranmasını nisbətən ləngitdi. Bu zaman İranda milli zülm, irqi bərabərsizlik dövlət tərəfindən ardıcıl olaraq həyata keçirilən bir siyasət kimi çox zəif idi və əsasən dini bərabərsizlik və təqiblər (şiə-sünni, müsəlman-xristian, yəhudi, zərdüşt və xüsusilə babi və bəhailər arasında) şəklini alırdı. Bununla əlaqədar yeni yaranmaqda olan azərbaycanlı ziyalıların da ölkənin bütün əhalisini nəzərdə tutan ictimai-siyasi, mədəni fəaliyyətlərində İranda yaşayan xalqlar üçün əsrlərdən bəri ənənəvi ədəbi dil olmuş fars dilinə müraciət etməsi təbii idi. Cənubi Azərbaycan mədəniyyətinin də həm güclü və həm zəif cəhəti də məhz bunda idi.

Cənubi Azərbaycanın mədəni inkişafının gücü bunda idi ki, bütün İran miqyasında yeni burjua, sonralar isə demokratik mədəniyyətin, ədəbiyyatın, ictimai fikrin mühüm tərkib hissəsini təşkil edən ümumi mədəni inkişafı sürətləndirdi.

Zəif cəhəti isə bunda idi ki, Cənubi Azərbaycan mədəniyyətinin inkişafının fars dili ənənəsi çərçivəsində qalması bu diyarda geniş xalq kütlələrinin yeni mədəniyyətdən xeyli dərəcədə məhrum edilməsinə səbəb oldu. Bu da öz növbəsində Cənubi Azərbaycandakı mədəniyyətin milli məzmununu zəiflətdi, onu əhalinin məhdud bir hissəsinin malı etdi, onu xalq yaradıcılığından uzaqlaşdırdı. Mədəniyyətdə fars dili ənənəsinin qalması azərbaycanlı ziyalıların mövqeyini zəiflətməklə milli Azərbaycan mədəniyyətinin inkişaf imkanlarını məhdudlaşdırır və bununla yanaşı fars-şovinist təmayülləri üçün yol açmış olurdu.

Beləliklə, XIX əsrin axırlarınadək bütün Qacarlar dövlətində olduğu kimi, Cənubi Azərbaycanda da mövcud olan ənənəvi dini maarif sistemi cəmiyyətin müasir ictimai, siyasi, mədəni inkişaf səviyyəsinin tələblərinə xidmət etməyə əsla qadir deyildi. Hətta tam təhsil almış gənclər, inzibati və hərbi məmurlar, yüksək vəzifəli dövlət xadimlərinin böyük əksəriyyəti bu baxımdan əslində savadsız idi.

**2. Yeni maarif sisteminin yaranmasında Rüşdiyyə siması**

Cənubi Azərbaycanda yeni maarifin ilkin rüşeymi 1869-cu ildə Təbrizdə "Mədrəseyi-Nasiri" adlı məktəbin açılması ilə qoyulmuş oldu. Dövlət tərəfindən Təbrizdə təsis edilmiş ilk yeni məktəb isə 1877-ci ildə açılmış "Təbriz dövlət mədrəsəsi" idi. Bu məktəb öz quruluşuna və səviyyəsinə görə Tehran darülfününunu (*universitetini – S.B.)*[*] xatırladırdı. "Təbriz dövlət mədrəsəsi"nə əsasən

[*] *Tarixçi alim Səməd Sərdariniyanın verdiyi məlumata görə, Tehran darülfünunu Şərqin böyük mütəfəkkirlərindən sayılan Mirzə Tağı xan Əmir Kəbirin fikri və təşəbbüsü ilə 1849-cu ildə təsis edilmişdir. İranda ikinci darülfünun 1877-ci ildə Təbrizdə yaradılmışdır. Hər iki darülfünun eyni ixtisas yönümlərinə malik olmaqla onlardakı dərslər universitet səviyyəsində idi [2, s.281]*

15-16 yaşlarında olan zadəgan uşaqları qəbul edilirdi və mədrəsənin tədris proqramına tibb, həndəsə və hərbi fənlərlə yanaşı fars və fransız dilləri də daxil idi. Mədrəsə əsasən əczaçı, həkim və zabit hazırlayırdı və 1897-ci ilədək müəyyən fasilələrlə fəaliyyət göstərmişdir. Fəaliyyətinin son illərində Təbriz dövlət mədrəsəsinə "Müzəffəriyyə" adı verilmişdi.

Dövlət tərəfindən ölkə miqyasında yeni tipli bir neçə məktəbin təsis edilməsi ilə maarif sahəsində ciddi bir dəyişiklik baş vermədi. Belə ki, bu sayda məktəblər artmaqda olan burjua təbəqələrinin ehtiyaclarını ödəyə bilməzdi. Buna görə də XIX əsrin 80-90-cı illərində İranın başqa əyalətlərindən daha öncə Cənubi Azərbaycanda yeni tipli (yeni qaydalı – "üsuli-cədid) məktəblərin təsis edilməsi işini burjuaziya nümayəndələri, ziyalıları öz əllərinə almağa başladılar. Dövlət isə 1900-cü ilədək nəinki bu işə heç bir yardım göstərmədi, əksinə bir sıra tədbirlərilə bu işə mane oldu.

Cənubi Azərbaycanda və ümumiyyətlə İranda müasir maarif sisteminin yaranması prosesi də məhz bu zamandan başlanır. Təbrizdə təqribən ibtidai məktəb səviyyəsində olan "Dəbestan" adlı ilk xüsusi "üsuli-cədid" məktəbini 1888-ci ildə "İran maarifinin atası" adlandırılan Mirzə Həsən Rüşdiyyə* təşkil etdi.

Həsən ilk təhsilini ərəb və fars dillərini mükəmməl bilən, dövrünün görkəmli ziyalısı sayılan atası Molla Mehdi Təbrizidən aldı və o da atası kimi mədrəsədə çalışan bir ruhani oldu. 1875-1896-cı illərdə İstanbulda Təbrizli Mirzə Nəcəfəli xan və Ağa Məhəmməd Tahirin nəşr etdiyi «Əxtər» qəzetindəki bir məqalə gənc Həsənin ömür yolunu dəyişdi və öz peşəsini seçməsində ona yol göstərdi. İran mətbuatı tarixində ilk mühacir qəzet olan «Əxtər»dəki «Avropada hər min nəfərdən on nəfəri savadsız, İranda isə hər min nəfərdən on nəfəri savadlıdır. Bu nöqsan əlifbanın çətinliyi və tədris üsulundakı qüsurlardan irəli gəlir... İranda da avropasayağı məktəblər olmalıdır" fikirləri sanki Həsəni silkələdi [10].

Xarici ölkələrdəki təhsil sisteminə böyük maraq göstərən Həsən öz dini təhsilini təkmilləşdirmək üçün ilk öncə Nəcəf şəhərinə yollandı, sonra isə atasından icazə alaraq müasir təhsil prinsiplərini öyrənmək üçün İstanbula getdi. Orada yeni tipli məktəblərlə tanış oldu, Avropa təhsili almış insanlarla görüşdü. Bununla belə, İstanbuldakı təhsil sisteminin də təməllərinin zəif və qeyri-sabit olduğunu görən Rüşdiyyə ingilislər tərəfindən yaradılmış Misir Pedaqoji Universitetdə təhsil almaq üçün həmin ölkəyə səfər edir. Lakin buradakı tədris sistemini və təlimin səviyyəsini bəyənmədiyindən 1879-cu ildə o, Osmanlı dövlətinə aid olan Beyrut şəhərinə gedərək burada fransızlara aid "Darül-müəllim"ə (Pedaqoji Universitetə) daxil olur [2, s.281-282; 8]. Elə buradaca "üsuli-cədid" (yeni tipli) məktəblərdə tədris metodu ilə tanış olur, yeni tipli məktəblərin təşkili, idarə edilməsi və eyni zamanda əlifbanın asan və yeni üsul ilə tədrisini öyrənir.

## 3. Azərbaycanın həm şimalında və həm cənubunda yeni tipli "Rüşdiyyə" məktəblərinin yaranması

Yenidən İstanbula dönən Həsən buradakı zəngin elmi, mədəni mühitlə və maarif sistemindəki yeniliklərlə yaxından tanış olduqdan sonra vətəninə qayıdaraq öyrəndiklərini tətbiq etməyə, millətinin balalarını maarifləndirməyə çalışdı. Lakın Təbrizdə onunla həmfikir olanların azlıq təşkil etdiyini, maarif sistemindəki yeniliklərə qarşı irticaçı-qaragüruhçu qüvvələrin təzyiqlərinigördükdən sonra o, İrəvan şəhərində yaşayan qardaşı Mirzə Əlinin yanına gedir və burada 1883-cü ildə onun köməyi ilə yerli müsəlmanlar üçün özünün ilk müasir tipli ("üsuli-cədid") dünyəvi məktəbini açır. Əslində onun bu qərarı qəbul etməsi heç də təsadüfi deyildi. Belə ki, XIX yüzilliyin ikinci yarısında Qacarlar dövlətindən İsmayıl Kazımzadə və Mirzə Kazım Əsgərzadə də İrəvana gəlib burada yeni üsullu ana dili məktəbləri açmışdılar [10].

* *Mirzə Həsən Təbrizi (Rüşdiyyə) 1851-ci ilin iyul ayının 4-də Təbriz şəhərində anadan olmuş, ilk təhsilini həmin şəhərdə almışdır. O, təhsilini davam etdirmək üçün İstanbula, Beyruta, Qafqazın müxtəlif şəhərlərinə getmiş, M.F.Axundovun və K.D.Uşinskinin yeni təhsil üsulu və digər pedaqoji nəzəriyyələrlə yaxından tanış olmuşdur. M.H.Rüşdiyyə öz pedaqoji təcrübəsini 1882-ci ildə İrəvanda [2, s.281-282; 3, s.351-354) təsis etdiyi yeni tipli məktəbdə sınaqdan keçirmiş, sonra Təbrizə gəlmişdir.*

İrəvanlılar onu Mirzə Həsən deyə çağırdılar. O isə ərəbcə "böyümə", "inkişaf" mənasını verən "Rüşdiyyə" sözünü özü üçün ləqəb kimi qəbul edir və sonralar bu onun soyadına çevrilir.

Onun İrəvanda yaratdığı yeni tipli məktəb, S.Sərdariniyanın yazdığına görə, "qısa müddətdə yerli müsəlmanlar (*azərbaycanlılar nəzərdə tutulur – S.B.*) tərəfindən yüksək razılıqla qarşılandı və xeyli nüfuz qazandı" [2, s.282]. Bu məktəbdə Azərbaycan dili ilə yanaşı, fars, rus və fransız dilləri, coğrafiya, həndəsə, kimya və s. fənlər də tədris edilirdi.

Çar Rusiyası işğal etdiyi bölgələrdə yerli xalqlardan kiçik məmurlar hazırlanmasına böyük maraq göstərirdi. Mirzə Həsənin açdığı məktəbdə hazırlanan kadrlar da çar Rusiyasının işinə yaradığından hakim dairələr onun fəaliyyətini təqdir etdi, maddi yardım göstərdi, mükafatlandırdı. Nəsirəddin şah Qacar Çar Rusiyasına səfəri zamanı İrəvanda olarkən Mirzə Həsən Rüşdiyyənin açdığı məktəbdə də oldu [2, s.282].

Bundan sonra xeyriyyəçi dostlarının köməyi ilə Naxçıvana, oradan da 1888-ci ildə Təbrizə qayıdan Mirzə Həsən Rüşdiyyə burada, "Dəbestan" adlı yeni tipli məktəb açdı. Bu məktəb zahirən ənənəvi təhsil görüntüsünü saxlasa da yeni metodlar tətbiq etmişdir. Burada əlifba səs üsulu ilə öyrədilmiş, fiziki cəza (fələqqə) ləğv edilmiş, sabit dərs qrafiki müəyyən edilmiş, bir sözlə Avropa məktəblərindəkinə yaxın qaydalar qoyulmuşdu. Bu, Təbriz irticaçılarını qəzəbləndirmiş, "Dəbestan" məktəbinin dağıdılmasına səbəb olmuşdur [11].

1893-cü ildə Mirzə Həsən məktəbi şəhərin Şeşgilan məhəlləsinə (*Təbriz şəhərindəki məşhur məhəllələrdən biri – S.B.*) köçürmüşdür. 23 may 1946-cı il tarixində Təbrizdəki Sovet Mədəniyyət Evində "Sovet İttifaqı ilə mədəni əlaqə saxlayan cəmiyyət" tərəfindən Azərbaycanın böyük maarifpərvəri Hacı Həsən Rüşdiyyənin həyat və fəaliyyətinə həsr edilmiş ədəbi müşavirədə məruzə ilə çıxış edən Hacı Mirzə Əbdüləli (*o, Hacı Müdəbbir kimi tanınırdı – S.B.*) həmin məktəbin fəaliyyəti barədə belə demişdir: "Təbrizin valisi mərhum Hacı Əminüddövlə Rüşdiyyənin təzə üsul ilə mədrəsə açdığını eşidir və bir gün şəxsən mədrəsəyə gedir. Mədrəsənin vəziyyətini görür, tədris üsulunu bəyənir və gələcəyinin parlaq olacağını təyin edir. Mərhum Hacı Əminüddövlə maarifpərvər bir adam olduğundan dərhal göstəriş verir ki, Şeşgilanda Hacağa Bozorg Şirazinin həyətlərini icarə edib mədrəsəni oraya köçürsünlər. Mədrəsənin çox hissələrinin xərclərini də özü öhdəsinə götürür. Beləliklə, 100 nəfərə kimi yoxsul şagirdlər mədrəsəyə qəbul olur, onların yemək-içməklərini, geyimlərini və kitab xərclərini o mərhum ödəyir, mədrəsə üçün yaxşı bir laboratoriya təşkil edir. Mədrəsədə şagirdlərə nahar və çay verirlər. Bir az müddətin ərzində "Rüşdiyyə" mədrəsəsinin sədası hər yanı çulğalayır və get-gedə məktəblərin qapıları bağlanır və şagird dəstələri sel kimi "Rüşdiyyə" mədrəsəsinə axışırdı. Bu zaman mədrəsə inkişafının son dərəcəsinə çatmışdı" [8]. Sonradan bu məktəb Nəsirəddin şah Qacarın oğlu, Azərbaycan vilayətinin hakimi (valisi) Müzəffərəddinin şərəfinə "Müzəffəriyyə" adlandırmışdır.

Bu məktəbdə əsas dərslər Azərbaycan dilində aparılırdı. Dövrün məşhur ziyalılarından Məhəmmədəli Tərbiyyət, Əhməd Müdərris, Hüseyn Kamal Təbibzadə və b. burada dərs dedi. Şagirdlərin sayı isə 200-ü keçdi. Əksəriyyəti yoxsul ailələrdən olan bu uşaqlar məktəbdə pulsuz oxudular.

### 4. Azərbaycan gəncliyinin milli kimlik ruhunun formalaşmasında Rüşdiyyənin xidmətləri

1894-cü ildə Mirzə Həsən Rüşdiyyə məktəbdə tədris etmək üçün "Vətən dili" kitabını yazaraq Təbrizdə çap etdirdi [4, s.295]. Sadə və aydın dildə yazılan bu dərslik məktəblilərin işinə çox yaradı. Altı ayda uşaqlara yazıb-oxumağı öyrədən bu dərslik qısa müddətdə İran azərbaycanlıları arasında geniş yayıldı.

Mirzə Həsən 1897-ci ilədək Təbrizdə yeni üsulla dərs keçilən doqquz məktəb açsa da, mürtəce ruhanilər onun rahat işləməsinə imkan vermədilər. Bəzən məktəbləri bağlatdılar, bəzən də qarət etdilər. Amma müxtəlif bəhanələrlə məktəbinin qapadılmasına, hətta talan edilməsinə baxmayaraq, Rüşdiyyə inadla müasir təhsili təmsil edən təhsil ocaqlarının qurulması işini davam etdirmişdir.

Tehranda, Təbrizdə, Qumda yaradılmış bu məktəblər təsisçisinin adı ilə "Rüşdiyyə" məktəbləri adlanmışdır [11].

"Azərbaycan" qəzetinin yazdığına görə, 1897-ci ildə Müzəffərəddin şah Əminüddövləni Tehrana istəmiş və onun ardınca Rüşdiyyə də buraya dəvət olunmuşdur. O, Müzəffərəddin şahın dəstəyi ilə Tehranda da yeni tipli mədrəsənin əsasınıqoymuşdur. Rüşdiyyə mədrəsəni açdıqdan sonra az bir zaman içərisində elə şöhrət qazanmışdır ki, şagirdlər oxuduqları məktəbləri tərk edib Rüşdiyənin mədrəsəsinə üz tutmuşlar [8]. 1897-ci ildə Tehranda ilk yeni tipli məktəb açan Rüşdiyyə "Vətən dili" kitabını farscaya çevirib dərslik kimi bu məktəbdə tədris etmişdir [4, s.295]. 1898-ci ildə təşkil edilən "Maarif əncüməni" və "Ali Maarif Şurası" yaradılmasında böyük əməyi olan M.H.Rüşdiyyənin metodu sürətlə yayıldı. Ölkədə yeni açılan "üsuli-cədid" məktəbləri də bu metoda üstünlük verdi.

Bununla belə Müzəffərəddin şahın və Hacı Əminüddövlənin dəstəyinə malik olan Rüşdiyyə Əminüssoltan Mirzəli Əsğər xan Atabəyin* kobud rəftarına tuş gəlir. 1898-ci ilin iyul ayında yeni maarifçi hərəkatın hamisi olan Baş nazir Əminüddövlə də vəzifəsindən kənarlaşdırıldıqdan sonra Atabəy Müzəfərəddin şahı məcbur edir ki, Rüşdiyyəni sürgün etsin. Müzəffərəddin şah Atabəyi özündən incik salmamaq üçün Rüşdiyyəni yanına çağırır ona səfər təklifi edir. ADF orqanı "Azərbaycan" qəzeti həmin görüşü Azərbaycan Milli Hökuməti dövründə (1945-1946-cı illər) Hacı Müdəbbir kimi tanınan Hacı Mirzə Əbdüləlinin dili ilə belə təsvir edir: "Mərhum Rüşdiyyə əsəbi bir halda bildirdi ki, "mən İranı tərk etməyə çox məmnunam, ondan ötrü ki, bir məmləkətin şahı sən olasan və sədr əzəmi də Mirzəli Əsğər xan, mən o məmləkətdə yaşamağı özümə eyib və ar bilirəm. Amma başqa bir çıxış yolum olmadığından səfər etməyə məcburam". Şah soruşdu ki, "hara meylin var səfər edəsən?" Mərhum Rüşdiyyə cavab verdi ki, "zalımın əlindən məzlum hara pənah aparar? Məlumdur ki, Allahın evinə!" Nəhayət, onu səfərə məcbur etdilər. Həqiqətdə isə onu sürgün elədilər" [8].

Vəziyyətin və ona olan münasibətin getdikcə pisləşdiyini görən M.H.Rüşdiyyə 1900-cü ildə həcc ziyarəti üçün Məkkəyə yola düşdü. Rüşdiyyə iki ilə yaxın bir müddət ərzində Məkkə, Mədinə, Akka, Hayfa, Beyrut, Şamat və Qüds kimi şəhərlərdə müqəddəs yerləri ziyarət edir. Məşrutədən öncə İrana qayıdır.

## 5. Məşrutə inqilabı dövründə Rüşdiyyənin ictimai-siyasi fəaliyyəti və onun "Azərbaycan maarifinin atası" statusunu qazanması

O, 1902-1903-cü illərdə Tehranda nəşr etdirdiyi "Məktəb" və "Tehran" qəzetlərində ictimai-siyasi məqalələr yazdı. Təhsilin yenidən qurulması üçün elmi-metodiki tövsiyələr hazırladı, dərsliklər yazaraq çap etdirdi [12]. Məqalələrində təhsilin yenidən qurulmasına əngəl olan şah idarəçiliyini kəskini tənqid etdiyinə, mürtəce dairələrə qarşı durduğuna görə onu həbs etdilər və Xorasan vilayətinə sürgünə göndərdilər.

Xalqın Konstitusiya uğrunda mübarizəsi geniş vüsət alanda Hacı Mirzə Həsən yenidən Təbrizə qayıtdı, Şeşgilan məhəlləsində yenidən məktəb açmağa müvəffəq oldu.

Məşrutə hərəkatı fəallarından olan Rüşdiyyə bir daha Tehrana dönərək orada "Rüşdiyyə" məktəbini açdı, "Əncüməni tənviri əfkar" *("Maarifçi fikir dərnəyi" - S.B.)* cəmiyyətini qurdu.

Rüşdiyyə 37 cild kitabın†, o cümlədən "Vətən dili", "Bədayətüt-təlim", "Kifayətüt-təlim", "Nəhayətüt-təlim", "Təkmilətüs-sərf", "Ana dili", "Əlifbayi-Rüşdiyyə", "Üsuli-əqaid və ya ittihadi-bəşər" və başqa bu kimi əsərlərin, dərsliklərin, uşaq şeirlərin müəllifidir [8].

M.H.Rüşdiyyənin Azərbaycan maarifinə böyük xidməti, birinci növbədə, bütün tədris işini müasir pedaqoji metodika əsasında qurması idi. Onun təsis etdiyi məktəblərdə qaydalar Qərb ölkə-

* *"Əmin əl-Sultan" ləqəbli Mirzə Əli Əsğər xan Atabak (1236-cı ildə Tehranda anadan olmuş - 1286-cı ildə Tehranda da vəfat etmişdir) üç Qacar padşahlarının - Nəsrəddin şah, Müzəffərəddin şah və Məhəmməli şahın dəftərxana müdiri (sərd əzəm) olmuşdur.*

† *S.Sərdariniya bu kitabların sayının 30 cild olduğunu göstərmişdir [2, s.288]*

lərindəki tədris prinsiplərinə yaxın idi. O, ilk savadı ənənəvi əzbərçilik yolu ilə deyil, əlifbanı tez və asan yolla öyrənməyə imkan verən sövti (səsli) üsulla tədris edirdi.* Rüşdiyyə ilk dəfə olaraq Azərbaycanda maarifi ana dilində tədris etmək təşəbbüsü ilə çıxış etmiş və beləliklə, Azərbaycan milli mədəniyyətini qoruyub canlandırmaq yolunda qiymətli addım atmışdır. O, Azərbaycanda (Təbrizdə) açdığı yeni tipli məktəbdə təlimi türkcə və yazdığı "Vətən dili", "Ana dili" dərslikləri əsasında aparmışdır [4, s.295]. Öz əqidə və fəaliyyətinə görə demokrat olan Rüşdiyyə təsis etdiyi məktəblərə sinfi mənşəyindən və əmlak vəziyyətindən asılı olmayaraq bütün azərbaycanlı uşaqları cəlb etməyə çalışır, öz məhdud vəsaiti hesabına kasıb uşaqların oxumasını təmin edirdi.

Mirzə Həsən Rüşdiyyənin maarif sahəsindəki çoxsahəli fəaliyyətinə qızlar üçün məktəblər açması, qadın azadlığı uğrunda mübarizəsi, korlar üçün məktəb açması və onlar üçün yeni oxumaq üsulu ixtira etməsi də daxildir.

1933-cü ildə təqaüdə çıxan böyük maarifçi 1944-cü il dekabr ayının 12-də, 93 yaşında Qum şəhərində vəfat etmişdir [8; 2, s.292]. Öləndə belə bir vəsiyyət etmişdir: "Məni elə yerdə dəfn edin ki, məktəblilər hər gün qəbrimin üzərindən keçərkən ruhumu şad etsinlər".

1945-1946-cı illərdə Təbrizdə nəşr olunan ADF orqanı "Azərbaycan qəzeti Azərbaycan maarifinin atası haqqında öz səhifələrində yazırdı ki, Rüşdiyyə hər bir xalqın tərəqqisinin onun mədəni-maarif səviyyəsinin tərəqqisi üçün şəraitdən və vəsaitin mövcud olmasından asılı olduğunu yaxşı bilirdi. Buna görə o, bu şəraiti yaratmaq və lazımlı vəsaiti əldə etmək uğrunda var qüvvəsi ilə çalışmışdır... O, təlim və tərbiyə üsulunun əsası olan ana dilini təbliğ edib yayırdı. Belə ki, o hər şeydən əvvəl Azərbaycan əlifbasını asanlaşdırmaq fikrinə düşmüş və səs prinsipi ilə Azərbaycan dilində dərs demək təşəbbüsündə olmuşdur. Bu üsulun köməyi ilə uşaqlar öz ana dillərində altmış saat ərzində yazıb-oxumağı öyrənə bilirdilər. Rüşdiyyənin Təbrizdə çap olunmuş "Vətən dili" adlı dərs kitabı istər doğma Azərbaycan dilində olması etibarı ilə və istərsə də yeni səs prinsipi tədrisi ilə yazılması cəhətdən, eləcə də elmi nöqteyi-nəzərdən Azərbaycan maarififi tarixində misilsiz bir əsərdir [5].

"Azərbaycan" qəzeti başqa bir sayında Rüşdiyyənin Azərbaycan maarifinə, Azərbaycan gəncliyinə göstərdiyi xidmət barəsində belə yazırdı: "Hacı Mirzə Həsən Rüşdiyyənin Azərbaycan dilində təlim alan şagirdləri bu gün Azərbaycanın ən məşhur görkəmli maarif xadimlərini vücuda gətirmişlər. Onlar Rza şah dövründə və hal-hazırda farsca təhsil alan bəzi bədbəxt cavanlarımız kimi savadsız, iradəsiz və süst deyildilər. Onlar yaşayıb-yaratmağa öyrənmişlər. Onlar öz ana dillərini, Azərbaycan dilini göz bəbəyi kimi sevib qorumağı özlərinə ən mühüm bir vəzifə hesab edirlər".

"Vətən dili" ana dili deməkdir. Böyük maarifpərvər bu kitabı yazarkən həqiqi bir psixoloq kimi uşaqların yaş səviyyəsini, qəlbini və əhvali-ruhiyyəsini nəzərə alaraq onun idrak qabiliyyətinə müvafiq surətdə hekayə və misalları tərtib etmişdir. Müəllif daha çox kitabın dil və üslubuna fikir vermişdir. Dilin sadə, təbii olmasını, uşaq üçün çətinlik törətməyəcəyini və həyatı dərk etmək üçün sözün böyük əhəmiyyətini nəzərə alan Rüşdiyyə Azərbaycan dilinin saflığını qorumağa xüsusi səy etmişdir. "Vətən Dili" kitabı Azərbaycanda, doğma Azərbaycan dilinin birinci dərs kitabı kimi tarixdə qalacaq və xalq onun müəllifini minnətdarlıqla yad edəcəkdir" [6].

"Azərbaycan" qəzeti "...**dil məsələsi ...bizim üçün ölüm və dirim məsələsidir**" deyən S.C.Pişəvərinin bu mövqeyinə söykənərək [9] Azərbaycan gəncliyi üçün milli kimlik səngərini qazan Mirzə Həsən Rüşdiyənin tarixi xidmətlərinə dəyər verərək yazır: "Xalqımızın maarifpərvər şəxslərindən biri Hacı Mirzə Həsən Rüşdiyyənin 42 il bundan qabaq Təbrizdə birinci dəfə olaraq Azərbaycan dilində nəşr etdirdiyi "Vətən dili" adlı dərs kitabı Azərbaycan dilinin inkişafı yolunda

* *Təhsil sistemində bütün dərs vəsaiti kimi istifadə olunan kitablar ərəb əlifbasında olduğundan uşaqlar yazıda "ə", "e" və bir sıra hallarda "o" kimi sait səsləri ifadə edən hərfləri görə bilmirdilər. Məsələn, ərəb əlifbası ilə yazılan "Səməd" sözündə cəmi üç hərf, "s", "m" və "d" hərfləri ardıcıl olaraq yazılır, uşaq isə "ə" səsini verən saitin işarəsini bu sözdə görə bilmir və o, bu sözün tələffüzünü yalnız əzbərçilik yolu ilə yadında saxlamalı olurdu. Bu isə əlifbanı və sonra yazı qaydalarını öyrənən uşaqlarda böyük çətinliklər, ilk növbədə fikri qavarama çətinlikləri yaradırdı. Səsli əlifbanı – "yeni üsulu" tətbiq edən Rüşdiyyə bu çətinlikləri aradan qaldırmış oldu.*

atılmış ümidli addımlardan biri idi... Dil, istiqlaliyyət və azadlıq uğrunda mübarizədə ən kəskin silahdır. Öz ana dilindən məhrum edilmiş bir millət ölümə məhkum deyilmi? Millətini irəli aparan, ona öz varlığını dərk etdirən əsas amillərdən birisi də dil deyilmi?... Bu dil bizim iftixarımız, babalarımızdan, qəhrəman əcdadımızdan qalma yadigardır. Damarlarında azərbaycanlı qanı axan hər bir kəs bu dili öz milli varlığının və milli qürurunun ən böyük neməti kimi qoruyur və ona ehtiram bəsləyir" [7].

**Nəticə**

Təbrizdə "Rüşdiyyə" məktəbinin yaradılmasının əsas nəticələrindən biri bu idi ki, onun bağlanmasından sonra Rüşdiyyənin nəzarəti və rəhbərliyi altında tədrislə məşğul olub səsli əlifba təlimini, eyni zamanda yeni tədris prinsiplərini öyrənmiş müəllimlərin bir çoxu Təbrizdə ayrı-ayrılıqda mədrəsə və məktəb açmaqla Azərbaycan mədəniyyətinin yayılmasına və inkişafına çalışdılar.

Əslində "Rüşdiyyə" məktəbinin bağlanması zahiri bir cəhət oldu. Belə ki, "Rüşdiyyə" məktəbinin yetişdirmələri Mirzə Həsən Rüşdiyyə Tehrana getdikdən sonra da onun fikir və məqsədlərini həyata keçirməklə məşğul idilər və bu əsasda da yeni tipli məktəblər yaratdılar ki, hər biri öz növbəsində Azərbaycan maarifi və mədəniyyəti üçün dəyərli xidmət göstərdi. Təbrizdəki "Rüşdiyyə" məktəbində tədrislə məşğul olmuş, Azərbaycan milli mədəniyyətinə xidmət etmiş, gələcək nəslin milli ruhda tərbiyəsində əvəzsiz xidmətlər göstərmiş müəllimlər sırasında Mirzə Hüseyn Vaizin*, Səhhafzadənin (Pərvəriş), Hacı Mirzə Əhməd Müdərrisin, Mirzə Hüseyn Kamalın† adlarını çəkmək olar.

Təbrizdə açılan "Üsuli-cədid" tipli məktəblər içərisində daha ikisini – 1899-cu ildə Seyid Hüseyn xan Ədalət, Mirzə Məhəmmədəli xan Tərbiyyət, Seyid Məhəmməd Şəbüstəri və Seyid Həsən Tağızadə kimi görkəmli xadimlər tərəfindən təsis olunan "Tərbiyyət" və yenə də həmin ilin sentyabr ayında Loğmanülmülk tərəfindən təsis olunan "Loğmaniyyə" mədrəsələrini qeyd etmək lazımdır. "Loğmaniyyə" mədrəsəsi əvvəlkilərdən fərqli olaraq tam orta məktəb səviyyəsində təşkil edilmişdi və orta məktəb proqramına daxil olan bütün fənlər (dini dərslər, fars ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, təbiətşünaslıq, əczaçılıq, rəssamlıq, fransız, ingilis, rus və ərəb dilləri) orada tədris edilirdi. Təəssüf ki, bu məktəb də irticaçı-qaragüruhçu qüvvələrin hücumuna məruz qalaraq bağlanmış, yalnız 1905-ci ildə öz fəaliyyətini bərpa edə bilmişdir.

Mirzə Həsən Rüşdiyyənin mədəniyyət sahəsindəki xidmətləri təqdirəlayiqdir. İnsanların məktəb adına nifrət etdikləri günlərdə Rüşdiyyə mərdlik və dəyanət nümunəsi göstərdi, yeni gələn nəslin milli ruhda tərbiyə alıb yetişməsinə çalışdı. O heç bir tənə və təhqirdən, maddi və mənəvi sıxıntıların təzyiqindən qorxmadı, əsas hədəf və məqsədindən geri çəkilmədi, İranda ilk olaraq Təbrizdə yeni mədəniyyətin əsasını qoydu. O, nəinki Azərbaycanda, eləcə də Tehran başda olmaqla bütün İranda yeni tipli və milli məzmunlu təhsil sisteminin - maarifin əsasını qoydu.

Rüşdiyyə yeni tipli məktəblər yaratmaqla, kitablar yazmaqla, qəzet nəşr etməklə, elmi toplantı və müzakirələrdə, azadlıq hərəkatlarında və milli əncümənlərdə iştirak etməklə öz şüurlu həyatını, səylərini, əldə etdiyi uğurları, elmi-dini görüşlərini həmvətənlərinin müasir dünyagörüşünə malik milli ruhlu insanlar kimi yetişməsi yolunda sərf etmiş oldu.

Yeni məktəblər yaratmaq işində bütün qüvvələri birləşdirmək, bu işi daha əsaslı şəkildə təşkil etmək üçün Azərbaycan maarifçiləri də, Tehranda olduğu kimi, 1900-cu ildə xüsusi "Maarif əncüməni" yaratdılar. Lakin Azərbaycanda bu əncümən də məhdud şəkildə gizli fəaliyyət göstərirdi. Ayrı-ayrı liberal ruhlu dövlət xadimləri istisna olmaqla tamamilə çürümüş Qacarlar dövləti maarif işinə heç bir maddi və inzibati yardım göstərmirdi. O üzdən də bütün İranda olduğu kimi, Azərbay-

* *Mirzə Hüseyn Vaiz Mirzə Həsən Rüşdiyyənin doğma xalası oğlu idi. O, Məşrutə hərəkatının öndə gedən nümayəndələrindən biri olmuşdur. Əhməd Kəsrəvi onun haqqında belə yazmışdır: "Elə bil ki, Allah Mirzə Hüseynin cazibədar səsini Məşrutə hərəkatının işinin irəli getməsi üçün yaratmışdı"[2, s.282]*

† *Mirzə Hüseyn Kamal 1897-ci ildə Təbrizdə "Mədrəseyi-Kamal" adlı yeni tipli məktəb təsis etmişdir. Lakin onun yeni tipli bu məktəbi 1903-cü ildə irticaçı-qaragüruhçu qüvvələr tərəfindən hücuma məruz qalaraq qarət edilmiş və fəaliyyətini dayandırmışdır. Bu hadisədən sonra Mirzə Hüseyn Kamal Bakıya mühacirət edərək orada "İttihadi-İraniyan" mədrəsəsini yaratmış və onun müdiri olmuşdur [1, s.224-225]*

canda da yeni tipli məktəblərin təsis edilməsi və ümumiyyətlə maarifin, yeni mədəniyyətin inkişaf etdirilməsi çox böyük çətinlik və maneələrlə üzləşdi.

Bu gün İran İslam Respublikasında minlərlə insan Hacı Mirzə Həsən Rüşdüyyənin başladığı işi davam etdirmək üçün mübarizə aparır.

## ƏDƏBİYYAT

**Kitab adı:**

1. Cənubi Azərbaycan tarixinin oçrki (1828-1917), Bakı, “Elm”, 1985, ___ s.
2. Səməd Sərdariniya. Məşahir-e Azərbaycan, “Danyal”, Təbriz, 1998, ___ s.
3. Şövkət Tağıyeva. Əkrəm Rəhimli. Səməd Bayramzadə. Güney Azərbaycan, “Orxan” nəşriyyatı, Bakı, 2000, 515 s.

**Məqalə adı:**

4. Şahnisə Rüstəmova. İran təhsil sistemində ana dili məsələsi, - AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstititunun "Elmi Araşdırmalar"ı (elmi-nəzəri məqalələr toplusu), X buraxılış, Bakı, 2014, s.295

**Jurnal və qəzet materialları:**

5. "Azərbaycan" qəzeti, say 11, 24.09.1945
6. "Azərbaycan" qəzeti, say 23, 08.10.1945
7. "Azərbaycan" qəzeti, say 45, 04.11.1945
8. "Azərbaycan" qəzeti, say 207, 24.05.1946
9. “Azərbaycan” qəzeti (ADF orqanı), say 1( 290), 05.09.1946

**Elektron məqalə:**

10. Bütöv Azərbaycanın marif ocağı Mirzə Həsən Rüşdinin ömür yolu və yaradıclığı [Elektron resurs]/ müəllif:Əlirza Amanbəyli – Elektron proqram, 2012. Keçid:// http://davam.az/6375-btv-azrbaycann-marif-oca-mirz-hsn-rdinin-mr-yolu-v-yaradcl.html - Müraciət tarixi: 30.01.2020
11. Güney Azərbaycan XIX yüzilliyin qaranlıqlarında. Qacar dövlətində Türklərin və Azərbaycanın yeri[Elektron resurs]/müəllif: Nəsib Nəsibli - Elektron proqram, 2018.Keçid://http://genderi.org/nesib-nesibli-guney-azerbaycan-xix-yuzilin-qaranlqlarnda-qacar.html?page=2 – Müraciət tarixi: 30.01.2020
12. Amerkanın səsinə təqdim etdiyi İranın dövlət siyasəti Azərbaycan milli mətbuatının qarşısına sədd çəkib [Elektron resurs]/ müəllif: Pərvanə Məmmədli- Elektron proqram, 2012.Keçid://, - http://davam.az/2198-prvan-mmmdli-rann-dvlt-siyasti-azrbaycan-milli-mtbuatnn-qarsna-sdd-kib.html– Müraciət tarixi: 30.01.2020

**_РЕЗЮМЕ_**

**_Самед Байрамзаде_**

**_Мирза Хасан Рушдийе – основоположник национальной идентичности азербайджанской молодежи_**

**_Ключевые слова:_** _Южный Азербайджан, Рушдийе, новый тип школы, национальная идентичность, родной язык._

Заслуги Мирзы Хасана Рущдиййе в области культуры конца 19 и начала 20 веков, который познакомился с новыми достижениями образования и культуры в России и Европе, заслуживают высокой оценки. Рущдиййе показал пример мужества и настойчивости, пытаясь воспитать новое поколение в национальном духе. Преодолев все материальные и моральные трудности, он не отступил от своей главной цели и задачи и заложил основы новой культуры в Иране, сначала в Тебризе. Он заложил основы нового типа национальной системы образования не только в Азербайджане (как на его юге, так и на севере, включая Эриван), но и во всем Иране, включая Тегеран. Он применил новый метод обучения в Азербайджане, а также во всем Иране, написав такие учебники на азербайджанском языке как «Родной язык», «Язык родины» и ряд научно-теоретических работ по педагогике. Таким образом, он получил титул «отца просвещения» и увековечил свое имя в нашей истории культуры.

Благодаря этим историческим заслугам Мирзы Хасана Рущдиййе для молодежи Азербайджана была построена «крепость национальной идентичности». Сегодня тысячи людей в Исламской Республике Иран пытаются продолжить работу, начатую Хаджи Мирзой Хасаном Рущдиййе.

**_SUMMARY_**

**_Samad Bayramzadeh_**

**_Mirza Hasan Rushdiyye - First Person who Built a Trench of National Identity for the Youth of Azerbaijan_**

**_Keywords:_** _Southern Azerbaijan, Rushdiyye, new school, national identity, Motherland language._

The contributions of Mirza Hasan Rushdiyye,who became acquainted with the new achievements of education and culture in Russia and Europe,in the field of culture in the late 19th and early 20th centuries are praiseworthy. Rushdiyye showed an example of courage and perseverance, trying to bring up the new generation in a national spirit. He was not afraid of any insults, the pressure of material and moral hardships, so he did not withdraw from his main goal and purpose and founded a new culture in Iran, first in Tabriz. He established a new type of national education system not only in Azerbaijan **(both in its south and north, including Yerevan)**, but also in the whole Iran, including Tehran. He applied a new method of teaching in Azerbaijan, as well as in the whole of Iran, by writing textbooks "Mother language", "Motherland language" and a number of scientific and theoretical works on pedagogy in the Azerbaijani language. In this way, he earned the title of "father of enlightenment" and immortalized his name in our cultural history.

Thanks to the historical services of Mirza Hasan Rushdiyye, a "trench of national identity" was built for the youth of Azerbaijan. Today, thousands of people in the Islamic Republic of Iran are trying to continue the work begun by Haji Mirza Hasan Rushdiyyah.